*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 aprel 2019-cu il № 31 (2348) Qiyməti 30 qəpik

*Ön xətdən reportaj*

## Böyük Qələbəyə bir döyüş qalıb!..

*Aprel, 2016 ruhumuzun arzuladığı tarixin başlanğıcıdı. Könlümüzdən həmin tarixi yenidən, daha böyük miqyasda yaşamaq ovqatı keçir. Dan yeri söküləndən bəri bir məkana - ön xətdə xidmət edən əsgərlərimizlə görüşə tələsirik. Həmişə inanmışıq, indi də inanırıq ki, Azərbaycan əsgəri Ali Baş Komandanın əmriylə döyüşməyə hazırdı, döyüşəcək və qələbə qazanacaq, torpaqlarımızı işğaldan azad edəcək. Gecənin səssizliyində yarpaqların titrəyişini də, yellərin daşlara necə çırpıldığını da duyan əsgərlər yaxın vaxtlarda müharibə səbəbindən Vətən torpağına düşən səngərləri dövlət sərhədlərinə köçürəcək. Şücaəti, qətiyyəti, Hərbi anda sədaqəti, Vətən sevgisi hər birimizin güvəncinə güvənc olan əsgərlərimizlə səmimiyyətlə kəlmələşəcəyik. Hər sadə, mürəkkəb cümləmizin mübtədası Vətən olacaq. Belə şirin məqamlara tələsirik...*

Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir.*



Kəlmələşə-kəlmələşə göy üzünə baxacam. Hiss edəcəm ki, bu yaz günü - təbiətin bəyaz günü düşüncələrim buludsuz göy üzünə sığal çəkən baxışların qələbə yozumlu mətləbindən barınacaq. Buludsuz göy üzü inamımın sürahisinə dönəcək. Var səsimlə "Böyük Qələbəyə bir döyüş qalıb!", - deyəcəm. Əsgərlər biri digərinə aman vermədən "Bir döyüş qalıb!", - deyəcək. Bizi müşayiət edən zabitin fərəhi, qüruru aşıb-daşacaq, razılıqla gülümsəyəcək...

Bu da dan yeri söküləndən bəri cazibəsinə can atdığımız məkan...

Bu da hər kəlməsini inamımıza güvənc, güvəncimizə inam bildiriyimiz əsgərlər...

Əsgərlərimizin əhatəsindəyik. Xoş dəqiqələri tarixə əsgər sözü yazır.

Əsgər Məhəmməd Zülfüqarlının qürurunu da aydınlığıyla hiss edirik, təəssüfünü də. Qürur da, təəssüf də 2016-cı ilin Aprel döyüşləriylə bağlıdı. Qürur bəllidi - qələbənin qürurudu, təəssüf o döyüşlərin iştirakçısı ola bilməyən bir tələbənin təəssüfüdü:

- Dostlarımdan biri universitetə qəbul olunanda o qədər sevinmişdi ki! Bu sevinci təkcə özü deyil, valideynləri də, tay-tuşları, dostları, müəllimləri də yaşamışdı. Aprel döyüşlərinə o da getmək istəmişdi. Onun ürəyindən nələr keçdiyini deməyə ehtiyac görmürəm.

2016-cı ilin Aprel döyüşlərindən az sonra Lələtəpənin ətəyində komandirinin təqdimatıyla gizir Tahir Misirxanovla kəlmələşirdik. Tahir döyüşlərdən, qələbədən, qələbəni qazananlardan danışırdı. "Döyüşlərdə iştirak edənlərin hamısı qəhrəmandı. Döyüşlərdə iştirak etməyənlərin iştirak edənlərə həsəd apardığını eşitmək də adamın ürəyini dağa döndərir", - gizir Tahir Misirxanov belə demişdi. Əsgərlərə həmin söhbəti, söhbətin bu məqamını xatırladıram, "Təkcə yeniyetmələr, gənclər, qazilər deyil, hərbi xidmətdə olan əsgərlər də Aprel döyüşlərində iştirak etmək istəyib. Bunu arzulayıb. Bu, Vətən sevgisidi...", - deyirəm.

- Vətənə sədaqət andı içmişik. Nizamnamələrin tələblərinə uyğun xidmət edirik. İnanırıq ki, torpaqlarımız işğaldan azad ediləcək. Hər birimiz Ali Baş Komandanın əmriylə başlayacaq həmin döyüşlərdə iştirak etməyi arzulayırıq, hər birimiz qələbənin əsgəri olmaq istəyirik, - əsgər Rüstəm Murquzovun səmimiyyətlə dediklərini əsgər Xəyyam Həsənovun dedikləri tamamlayır:

- Hərbi xidmətdən tərxis olunma ərəfəsindəyəm. Tərxis ərəfəsində olan əsgərin düşüncələrini hamı bilir. Səmimiyyətimə inanın, yaşadığım duyğularda bir narahatlıq da var. Bu narahatlıq Ali Baş Komandanın əmriylə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gələcək döyüşlərdə iştirak etməmə ehtimalının narahatlığıdı. Valideynlərimin yanına, el-obamıza qalib əsgər kimi qayıtmaq istəyirəm.

O yollardan birində əsgərlərin əhatəsində Böyük Qələbədən danışırıq. Əsgərlər bir boy da dikəlib dinləyir, bir boy da dikəlib danışır. Hər kəlmədə qürur var, sevgi var, ehtiram var.

Kapitan Emin Əliyev deyir ki, yüksək döyüş hazırlığına malik olan əsgərlərimiz döyüş növbətçiliyini böyük məsuliyyətlə aparır. Bu, onların hərbi xidmətə münasibətinin göstəricisidir - Vətən sevgisinin təzahürüdür.

Əsgər Seymur Əliyev deyir ki, Aprel döyüşlərində iştirak etmiş qonşumuzun tərxis olunduqdan sonra döyüşlər haqqında söhbətlərini, xatirələrini böyük maraqla dinləyənlərdən biri də məniydim. "Qonşum deyirdi ki, əsgərlərimiz cəsarətlə döyüşürdü, qələbə üçün döyüşürdü, Vətən üçün döyüşürdü. İnanıram ki, Ali Baş Komandan döyüş əmri verəndə siz əsgərlər də həmin cəsarətlə döyüşəcəksiniz, siz də qələbə qazanacaqsınız, torpaqlarımızı işğaldan tamamilə azad ediləcək.

İndi hərbi xidmətdəyəm. Qonşumdan eşitdiklərimi əsgər yoldaşlarıma demişəm. Komandirlərimizi də, əzizlərimizi də əmin edirik ki, Ali Baş Komandanımız döyüş əmri verəndə 2016-cı ilin Aprel döyüşlərinin iştirakçıları kimi döyüşəcəyik, qələbə qazanacağıq, tərxis edildikdən sonra yeniyetmələrə Böyük Qələbənin necə qazanılmasından danışacağıq...".

"Böyük Qələbəyə bir döyüş qalıb!", - üzü göylərə sarı pıçıldayıram. Əsən yellər kəlmələrimi yaxınlara, uzaqlara aparır...

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi ilə görüşüb

*Aprelin 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov BMT-nin ölkəmizdəki Rezident Əlaqələndiricisi Qulam İsakzai ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın BMT ilə faydalı və hərtərəfli əməkdaşlıq etdiyini vurğulayan Müdafiə naziri ölkəmizin bu mötəbər təşkilat çərçivəsində hərbi sahədə də əməkdaşlığa başladığını qeyd edib.

Görüşdə tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı görülən işlərdən danışıb və BMT-nin bu istiqamətdə fəaliyyəti barədə fikir mübadiləsi aparıblar.

Müdafiə naziri bu yaxınlarda Nyu-York şəhərində keçirilən BMT tədbirlərində iştirakını xatırlayıb və burada keçirdiyi görüşlərin nəticələrini qonaqla müzakirə edib.

Q.İsakzai də öz növbəsində Azərbaycanın Əfqanıstanda keçirilən əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfəni yüksək qiymətləndirib və Azərbaycan hərbçilərinin sülhə dəstək missiyalarında fəal iştirakına görə öz təşəkkürünü bildirib.

Görüşdə BMT çərçivəsində hərbi sahədə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən terrorla mücadilə əməliyyatında hərbi qulluqçuların həlak olması və xəsarət alması ilə əlaqədar Türkiyənin Milli Müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələri tərəfindən uğurla həyata keçirilən terrorla mücadilə əməliyyatında hərbi qulluqçuların həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi. Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və var gücümüzlə dəstəkləyirik.

Şəhidlərimizə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Moskvada beynəlxalq konfransda iştirak edəcək

Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 23-dən 25-dək Moskva şəhərində keçiriləcək VIII Beynəlxalq Təhlükəsizlik Konfransında iştirak edəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən təşkil edilən beynəlxalq konfransda qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunacaq.

Plenar iclaslarda təhlükəsizliyin regional aspektləri, dövlətlərin təhlükəsizliyinə təhdidlərə qarşı cavab tədbirləri üzrə hərbi qurumların fəaliyyətlərinin regional xüsusiyyətləri və bir sıra digər məsələlər müzakirə ediləcək.

# Ölkəmizdə Azərbaycan-Türkiyə birgə hərbi təlimi keçiriləcək



*Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 3-dək ölkəmizdə "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə döyüş atışlı birgə taktiki təlimi keçiriləcək.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə iştirak etmək üçün Azərbaycana gələn Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin təntənəli qarşılanma mərasimi olub.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan büstü önünə gül dəstələri qoyulub, ulu öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaqdır.

Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb ediləcək.

Təlimə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılır.

# Böyük Qələbəyə bir döyüş qalıb!..

**(Əvvəli 1-ci səhifədə)**

...Bu yaz günü bir "Ruhani" dinləmək istəyirəm. "Ruhani" ruhların havasıdı. 2016-cı ilin aprelində Lələtəpənin yaxınlığında bənzərsiz bir "Ruhani" dinləmişdim. Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən kütləvi vətənpərvərlik tədbirinin uvertürası kimi dinləmişdim. Bu gözlənilən-gözlənilməz "Ruhani" hərbçilərin də, mülkilərin də ürəyini qələbəyə kökləmişdi. Mənə elə gəlmişdi ki, işğalın son nəfəsi üçün bir əmr kifayətdi; bu qüdrət təkcə "Ruhani"nin qüdrəti deyil, bu qüdrət "Ruhani"ni yaradan xalqımızın yaşam, var olma fəlsəfəsinin qüdrətidi, "Ruhani"nin formalaşdırdığı Vətən sevgisinin qüdrətidi...

Zaman anlamında dünən bu gün üçün tarixdi, bu gün sabahlar üçün tarix olacaq.

2016-cı ilin aprelində Azərbaycan əsgəri tarix yazdı. Bu gün sabahkı tarixlər üçün həmin tarixin qürurunu yaşayırıq. Sabahkı tarixlərin ən möhtəşəmi Böyük Qələbə olacaq. Böyük Qələbə hansı fəsildə qazanılacaqsa, o fəslə Qələbə fəsli deyəcəyik. O fəsli ruhumuzun fəsli biləcəyik. O fəsil zaman-zaman Azərbaycanın dövlətçilik tarixində qürurla xatırlanacaq...

Aprel döyüşlərindən əvvəl Cocuq Mərcanlıdaydım. Bu dərdli kəndin qəhərini Araza pıçıldamışdım. Onda əsgərlərin Lələtəpəyə sarı qəzəblə, nifrətlə baxdığını duymuşdum. Lələtəpədən əsən yellər kəndin sakinsiz evlərinin ağaclarının budaqlarını əsdirirdi. Baxışlarım əsgərlərin baxışlarına sarılmışdı. Əsgərlərə "Baxışlarınız könül bulandıran bu hala həm təsəllidi, həm də qələbənin uzaqda olmadığını bildirən zəmanətdi", - demişdim. Zabitlər də, əsgərlər də fikrimə dəstək olmuşdular, "Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan azad edəcəyimiz günə az qalıb...", - demişdilər.

Aprel döyüşlərində qazanılan qələbə Cocuq Mərcanlının taleyini durulaşdırdı. Kənd işğal olunanda evlər uçurulub-dağıdılmışdı. Aprel döyüşlərindən az sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Cocuq Mərcanlı yenidən quruldu. Cocuq Mərcanlının taleyində bir rəmz görürəm: kəndlərimiz işğaldan azad ediləcək, yenidən qurulacaq. Bu inam 2016-cı ilin Aprel döyüşlərindən gələn inamdı.

Düşüncələrim əsgərlərin düşüncələriylə elə gözəl tamamlanır ki...

Əsgər Rüstəm Murquzov deyir: "Bizdən əvvəl xidmət edənlər Aprel zəfərini qazandı, biz Ali Baş Komandanın əmriylə bütün torpaqlarımızı işğaldan azad edəcəyik".

Əsgər Məhəmməd Zülfüqarlı deyir: "Kəndlərimizi həm işğaldan azad edəcəyik, həm də tikintisində iştirak edəcəyik".

Əsgər Seymur Əliyev deyir: "Biz Lələtəpə, Bayraqtəpə fatehlərinin davamçıları olacağıq"...

Mayor Neymət Rəhimovla



görüşürük. 2016-cı ilin martında Murovdağda tanış olmuşduq, söhbətləşmişdik. O uzaqlıqda Azərbaycan əsgərinin döyüş ruhundan, qələbə əzmindən danışmışdıq. Bir ay keçməmiş Böyük Qələbə qazanılmışdı. Mayor Neymət Rəhimov qürurla bildirir ki, Aprel döyüşlərində şəhid olanlarımız da qəlbimizdə abidələşib, son nəfəsimizəcən bizimlə, bizdən sonra tarixlə yaşayacaqlar.

Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrinə hazırdır; Böyük Qələbəyə bir döyüş qalıb!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Bakı Qarnizonunda nizam-intizamın vəziyyəti təhlil edilib



*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2019-cu ilin 1-ci rübünün yekunlarına dair Bakı Qarnizonunda döyüş hazırlığının, hərbi nizam-intizamın vəziyyətinin təhlilinə həsr olunmuş müşavirə keçirilib. Tədbirdə qarnizonda yerləşən hərbi hissələrin komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirədə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cari ilin 3 ayı ərzində qarnizon ərazisində görülən işlər, əldə olunmuş uğurlar barədə çıxış edib və qarnizonda döyüş hazırlığının, hərbi nizam-intizamın yüksəldilməsi, eləcə də təlim-tədris prosesinin lazımi səviyyədə təşkil olunması ilə əlaqədar müvafiq tapşırıqları vəzifəli şəxslərin diqqətinə çatdırıb.



# İgid döyüşçüyə medal təqdim edilib

*Döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hacıyev Qoşqar Zahid oğlu uzun müddət Türkiyə Respublikasının Gülhanə Təhsil və Araşdırma Xəstəxanasının müalicə olunduqdan sonra indi də respublikamızda müalicəsini davam etdirir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2016-cı ildən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin müvafiq bəndinə uyğun istefaya buraxılmasına baxmayaraq Müdafiə Nazirliyi keçmiş döyüşçüdən diqqət və qayğısını əsirgəmir.

Müdafiə Nazirliyin bir qrup hərbi qulluqçusu qazimizin müalicə olunduğu hospitala gedərək onu ziyarət edib, ailə üzvləri ilə görüşüb. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə ötən ilin baharında Ankaraya gedərək Qoşqar Hacıyevlə görüşmüş, müalicəsi ilə yaxından tanış olmuş Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani həmin görüşü xatırlayaraq bildirib ki, Qoşqar bir möcüzə və həkimlərin səyi nəticəsində ölümün pəncəsindən xilas edilib. "Düşmən gülləsindən ölməmişəmsə, deməli mənə ölüm yoxdur", - deyən yaralı əsgər, o vaxt tezliklə sağalıb ayağa durmaq və düşməndən intiqamını almaq arzusunda olduğunu demişdi.

Ali Baş Komandan adından Müdafiə nazirinin əmri ilə Q.Hacıyevin "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilməsi xəbəri həm yaralı əsgəri, həm də ailə üzvlərini sevindirib. Əsgərin anası Pəri xanım oğlu yaralandığı ilk gündən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın, eləcə də Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunduğunu minnətdarlıqla nəzərə çatdırıb və deyib: "Doğrudur, oğlumun vəziyyəti olduqca ağırdır. Beyin daxilində hələ çoxsaylı qəlpələr var, ancaq ümidimizi üzmürük. Həkimlər də gecəligündüzlü oğlumun keşiyindədirlər. Ancaq biz belə diqqəti, qayğını görəndə təsəlli tapırıq. Oğlum istefaya buraxılsa da, Müdafiə Nazirliyi onu unutmur. Bu bizə ürək-dirək verir. Nə etməli, Qoşqar öz sinəsini Vətənimizə tuşlanan güllələrə sipər edən oğullarımızdandır. Digər iki oğlum da hər an döyüşə hazırdır. Bu döyüş medalı isə oğluma xidmətdə verilən ən yüksək qiymət kimi bizi sevindirdi".



Qoşqar kimi qorxmaz, igid oğul yetişdirdiyinə görə Pəri anaya təşəkkür edib. Qazimizin qardaşı Vüqar Hacıyev isə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hücum əmri verilərsə qardaşının döyüşçü dostlarına qoşulub zəfər yürüşünə çıxacağı günü səbirsizliklə gözlədiyini bildirib.

Polkovnik Rauf Dəmirov

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Qar uçqununa düşən hərbi qulluqçularımızın nəşi tapılıb

Həyata keçirilən axtarış-xilasetmə əməliyyatları nəticəsində mart ayının əvvəlində qar uçqununa düşən Azərbaycan Ordusunun hərbi qulluqçuları gizir Abdullayev Hafiz Məhəd oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Fərrux Fərman oğlunun nəşi tapılaraq aidiyyəti üzrə təhvil verilib.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olanların yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*23 aprel 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Acarlı, Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Ordusunun nümayəndələri NATO-nun çoxmillətli birgə tibb təlimində iştirak edib

*Azərbaycan Ordusunun nümayəndələri NATO-nun Hərbi Tibb Mükəmməliyyət Mərkəzi və Rumıniya Milli Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Vigorous Warrior-2019" çoxmillətli birgə tibb təlimində iştirak edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Rumıniyanın Çinku təlim mərkəzində 39 ölkədən 2500 nəfərdən artıq nümayəndənin iştirak ilə keçirilən təlimin əsas məqsədi tibbi təminat sisteminin təkmilləşdirilməsi, idarəetmənin qiymətləndirilməsi, hərbi, mülki, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əlaqənin qurulması qaydalarının məşq etdirilməsi olub.

Təlim zamanı tibbi təminat, kimyəvi, bioloji, radioloji, nüvə (KBRN) və partlayıcı qurğuların tətbiqinə qarşı hazırlıq, axtarış-xilasetmə əməliyyatlarının təkmilləşdirilməsi, müasir texnoloji dəstək vasitələrinin tətbiqi və digər məsələlər öyrənilib.

# NATO Parlament Assambleyasının 100-cü Rouz-Rout seminarı keçiriləcək

Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Qüdrət Həsənquliyev NATO Parlament Assambleyasının 100-cü Rouz-Rout seminarında iştirak etmək üçün aprelin 24-də Belçikanın paytaxtı Brüsselə səfər edəcəklər.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, seminarda NATO genişlənməsinin parlament ölçüsü, Rouz-Rout proqramı və təşkilatın açıq qapı siyasəti, NATO tərəfdaşlığı və genişlənmə siyasətlərinin genezisi və digər mövzularda müzakirələr aparılacaq.

Deputatlar qeyd olunan mövzular barədə öz fikirlərini açıqlayacaq, təkliflərini verəcəklər.

Səfər aprelin 27-də başa çatacaq.

# Hərbi pilotlarımız təlim-məşq uçuşlarına başlayıb

Müstəqillik qazanıldıqdan sonra Azərbaycan Respublikasının qarşıya qoyduğu prioritet vəzifələrdən biri də ordu quruculuğu istiqamətində islahatların aparılması oldu. Bu gün ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna və onun şəxsi heyətinə diqqət və qayğısını əsirgəmir. Onun nəticəsidir ki, bütün hərbi hissələrdə yaradılan sosial-məişət şəraiti, yeni silah və texnikaların, təyyarələrin, helikopterlərin alınması ordumuzun gücünü bir daha bütün dünyaya nümayiş etdirir. Digər dövlətlərlə hərbi-texniki sahədə aparılan sıx əməkdaşlıq münasibətləri sayəsində ölkəmiz yeni silah sistemləri və döyüş vasitələri ilə təchiz olunur. Bu zaman Hərbi Hava Qüvvələrinin, Quru Qoşunlarının, Artilleriya Qoşunlarının, Hava Hücumundan Müdafiə qoşunlarının döyüş qabiliyyətinin artırılması əsas götürülür. Bu günlərdə Hərbi Hava Qüvvələri yeni müasir sistemlərlə təchiz olunmuş "Super Muşşak" təlim təyyarəsini arsenalına daxil edib. Yeni təyyarənin taktiki-texniki xüsusiyyətlərini öyrənmək, eyni zamanda, pilotlarımızın həftəlik fəaliyyətlərini izləmək üçün "N" hərbi hissəsinə yollandıq. Bu barədə pilotlarımızın təəssüratlarını öyrəndik.



Zabit İlqar Qafarov:

- Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları nəinki Cənubi Qafqazda, hətta postsovet məkanında ən yaxşılarındandır. Tarixə nəzər salsaq görərik ki, Böyük Vətən müharibəsi illərində, Qarabağ müharibəsində və Aprel döyüşlərində pilotlarımız qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən layiqincə gəliblər. Bu gün Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Hərbi Hava Qüvvələrinin hərbi hissələri mütəmadi olaraq ən son təyyarə və helikopterlərlə təchiz olunur. Əminliklə deyə bilərəm ki, pilotlarımız istənilən an döyüş əmri ilə işğal olunan torpaqlarımızı qısa müddətdə azad etməyə qadirdirlər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq hərbi hissəmizin pilotlarının peşəkarlığının artırılması məqsədilə "Super Muşşak", L-39 və "Mİ" seriyalı helikopterlərdə təlim-məşq uçuşları həyata keçirilir.

Pilotlarımızın uçuşdan qabaq, uçuş zamanı və uçuşdan sonrakı fəaliyyətləri haqqında isə onu qeyd etmək istəyirəm ki, uçuşlardan bir gün öncə hərbi hissə komandiri tərəfindən rəhbər heyət ilə brifinq keçirilir. Şəxsi heyət qarşısında tapşırıqlar qoyulur. Qoyulan tapşırıqlara hazırlaşmaq üçün uçuş heyətinə sərbəst vaxt verilir. Bu zaman səhərki günün uçuş tapşırığına uyğun olaraq təyin edilmiş mövzular və trenajlar üzrə fərdi hazırlıq keçirilir. Sərbəst hazırlıqdan sonra sıralı olaraq əvvəlcə manqalarda manqa komandiri, eskadrilyalarda eskadrilya komandiri və sonda hərbi hissə komandirinin uçuş hazırlığı üzrə müavini uçuşa cəlb olunan bütün heyətin hazırlığını yoxlayaraq hərbi hissə komandirinə raport verir.

Uçuş günləri ilk olaraq uçuş heyətinin həkim müayinəsindən keçirilməsi ilə başlayır. Həkimlər gündəlik uçuşu yerinə yetirən heyətin sağlamlığına xüsusi nəzarət edirlər. Müayinənin əsasında həkim uçuşa yararlılıq barədə rəy verir.

Bununla yanaşı, hava kəşfiyyatına qərar qəbul olunur və əvvəlcədən təyin olunmuş ekipaj tərəfindən hava kəşfiyyatı aparılır. Bu zaman ehtiyat aerodromlarla əlaqə yaradılır və həmin günü hava şəraitinin uçuşların aparılmasına uyğun olub-olmaması təyin olunur. Aerodrom rayonunda və pilotaj zonalarında buludluluğun miqdarı, aşağı və yuxarı sərhədi, görünüş məsafəsi, buzlaşmanın olub-olmaması nəzərə alınır.



Eyni zamanda, uçuş heyəti ilə trenajorlarda və ya təyyarə kabinasında trenaj (məşqlər) keçirilir. Bu fəaliyyətlərdən sonra komandir tərəfindən uçuşqabağı göstərişlər, həmin gün üçün təyinatı üzrə bütün tapşırıqlar verilir və uçuşun başlama vaxtı təyin olunur. Təyin olunmuş vaxtda uçuşlar başlanılır. Uçuşlar zamanı gənc təyyarəçilərlə uçuş tapşırıqlarına uyğun olaraq pilotaj texnikası, marşrut uçuşları, cihazlarla uçuşlar, qoşa və manqa ilə uçuşlar məşq etdirilir. Uçuşlar zamanı baş vermiş nöqsanların uçuşlar arası təhlili keçirilir. Təlimatçı heyət dinləyici və ya öyrədilən şəxslə nöqsanları təhlil edir, növbəti uçuş üçün tapşırıqlar verir. Uçuşlar bitdikdən sonra uçuş gününün ümumi təhlili keçirilir. Bu zaman hərbi hissə komandiri nöqsanlar və əldə olunan nailiyyətlər haqqında məruzələri dinləyir, buraxılan nöqsanların aradan qaldırılması üçün göstərişlər verir.

Kapitan Nəsimi Allahverdiyev:

- Uşaq vaxtlarından təyyarələrə baxarkən özümdə bu peşəyə həvəsin yarandığını hiss etdim. Orta məktəbi fərqlənmə ilə bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldum. Tədris dövründə öyrədilənləri dərindən mənimsədikdən sonra ilk uçuş təlimlərinə üçüncü kursda başladım. Hal-hazırda "N" hərbi hissəsində təyyarəçi-təlimatçı kimi xidmətimi davam etdirirəm.

Əsas vəzifəmiz pilotların sırasına yeni qatılan şəxsi heyətə bu peşəni daha da sevdirmək, onların əldə etdiyi nəzəri biliklərin daha da təkmilləşməsinə və praktikada düzgün istifadə etmələrinə, uçuş prosesində qarşılaşdığımız çətinliklərin öhdəsindən gəlmələrinə köməklik göstərməkdir. Bu məqsədlə hərbi hissəmizdə ilkin uçuş vərdişlərinin mənimsənməsi üçün təyin olunmuş iki tip təyyarə mövcuddur. 2018-ci ilə qədər yalnız L-39 tipli təlim-məşq təyyarəsi döyüş təyyarələrinə pilot yetişdirilməsi üçün istifadə olunurdu. Artıq cari ildə hərbi hissəmizdə yeni alınmış porşenli "Super Muşşak" təlim təyyarəsindən də uçuşlar yerinə yetirilir. Bu təyyarənin alınması təlim prosesində bizə bir çox üstünlüklər qazandırdı. Müasir avionika sistemi ilə təchiz olunması gələcəkdə pilotların bu sistem ilə işləyən döyüş təyyarələrində uçuşunu asanlaşdıracaq.

Ayrıca təyyarənin digər sistemləri də mürəkkəb deyil. Bunun sayəsində gənc təyyarəçilər təyyarəni öyrənməkdə və istismarında daha az çətinliklə üzləşirlər. Öz sinfində digər təyyarələrlə müqayisədə "Super Muşşak"ın pilotaj qabiliyyəti yüksəkdir. Bu da dinləyicilərin uçuş qabiliyyətlərinin formalaşmasında və özünə inamın artmasında müsbət rol oynayır. İlkin təlimlər zamanı ən çətin mənimsənilən uçuş mərhələlərindən təyyarənin qalxışı və enişidir ki, "Super Muşşak"ın köməyi ilə bu proses nisbətən sadədir. Təlimatçılar üçün bu təyyarənin üstün keyfiyyətlərindən biri də oturacaqların yanaşı olmasıdır. Bunun nəticəsində təlimatçı gənc təyyarəçinin fəaliyyətini daha rahat müşahidə edə bilir və buraxdığı nöqsanlara vaxtında müdaxilə etmək imkanı qazanır. Uçuşlar daha az sürətlə yerinə yetirilir ki, bu da öyrənənlərdə səmtləşmənin aparılmasını, uçuş zonalarının öyrənilməsini, diqqətin paylanmasını rahatlaşdırır və uçuş vərdişlərinin daha da yaxşı inkişafına zəmin yaradır.



Leytenant Rəsul Əhmədov:

2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişəm. Bu peşəyə marağımın yaranması çox maraqlı olub. İlk dəfə təyyarəni Sumqayıt şəhərinə qonaq gələndə gördüm. Gördüyüm andan pilot olmaq arzusu ilə tez-tez təyyarələri görmək üçün Sumqayıt şəhərinə gələrdim. Nəhayət, fikrimi qətiləşdirdikdən sonra valideynlərim ilə məsləhətləşdim. Onların xeyir-duasını alandan sonra sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim etdim. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldum və təyyarəçilik ixtisası üzrə təhsilimi davam etdirdim. İlk uçuşum L-39 təyyarəsində baş verib. Birinci dəfə ştarval arxasında olduğumdan uçuşum çox böyük həyəcanla, çətinliklə keçdi. Ancaq bu gün çətinliklər geridə qalıb. Çünki peşəmi sevirəm, bu peşənin ardınca illər boyu qaçmışam, əmək vermişəm, çalışmışam.

Digər təyyarələrlə müqayisədə yeni alınan təyyarəyə gəldikdə isə onu demək istəyirəm ki, "Super Muşşak" rahatdır və bir çox üstünlüklərə malikdir. Pilotajların daha çox olması, dayanıqlığı, həmçinin Azərbaycan Ordusunun arsenalına yeni daxil olması şəxsi heyətin uçuşa olan marağını daha da artırır. Pakistandan gələn mühəndis-texnik və pilot heyəti bizlərə bu təyyarənin mənimsənilməsində yaxından kömək etdilər. Hal-hazırda ordumuzun mühəndis-texnik heyəti təyyarənin bütün taktiki-texniki xüsusiyyətlərini bilir. Qısa bir zamanda "Super Muşşak"ın istismarı üçün bacarıqlı təlimatçılar yetişdi. Onlar da mənimsədiklərini gənc təyyarəçilərə aşılayırlar. Bizlər də öyrədilənləri dərindən mənimsəyərək gələcəkdə bacarıqlı döyüş təyyarəçisi kimi formalaşmağa çalışırıq ki, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edək.

Leytenant Ağarəhim Quliyev:

- Təyyarəçi daima öz nizam-intizamı ilə fərqlənməlidir. Əgər uçuşa gedəcəksənsə, heç nə haqqında düşünməli deyilsən, fikrini ancaq yerinə yetirəcəyin tapşırığa cəmləşdirməlisən. Təyyarəçinin psixoloji vəziyyəti daim yüksək səviyyədə olmalıdır. O daim öz sağlamlığına diqqət yetirməli, düzgün qida rasionu qəbul etməli və yuxu rejimini nəzarətdə saxlamalıdır. Uçuşa getməzdən qabaq uçuş tapşırığını danışaraq trenajorlarda məşq etməlidir. Təyyarəçi həm də soyuqqanlı olmalıdır, uçuş zamanı yarana biləcək ekstremal vəziyyətlərdən çıxış yolunu bacarmalıdır. Bunun üçün təlimatçılar tərəfindən verilən gündəlik mövzuların, qarşıya qoyulan tapşırıqların mənimsənilməsi üçün öz üzərimizdə çalışmalıyıq. Ordumuzun gənc təyyarəçisi kimi mən də işimə daha da məsuliyyətlə yanaşıram. Gələcəkdə döyüş təyyarəsində Qarabağımızın səmasında azad bir qartal kimi uçmağı xəyal edirəm.

Pilotlarla söhbətimizi yekunlaşdırıb, kənardan onların "Super Muşşak", L-39 təlim təyyarələrində və "Mİ" seriyalı helikopterlərdə uçuşlarını izləyirik. Təyyarəçilərimizin məharətlə yerinə yetirdikləri manevrlər insanı heyran edir. Gördüyümüz bu səhnə Böyük Qələbə uğrunda gedəcək döyüşlərdə mavi səmamızın döyüşçülərinin silinməz izlər qoyacağının canlı sübutudur.

**Hazırladılar:**
**Baş leytenantlar**
**Məhəmməd NƏSİRLİ,**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Sovet İttifaqı Qəhrəmanı, qvardiya mayoru Müseyib Allahverdiyevin 110 illiyi qeyd edilib

*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Ağstafa rayonunda azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarından olan tabor komandiri, qvardiya mayoru Müseyib Abdulla oğlu Allahverdiyevin anadan olmasının 110 illiyi münasibəti ilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qəhrəmanın ailə üzvləri, hərbi qulluqçular, müharibə veteranları və ictimaiyyət nümayəndələri əvvəlcə Dağ Kəsəmən kənd qəbiristanlığına gedərək xalqımızın igid oğlunun məzarını ziyarət edib, ehtiram əlaməti olaraq məzarüstü abidə qarşısına qızılgüllər düzüblər.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin İkinci Dünya müharibəsində yüz minlərlə azərbaycanlının iştirakı, qəhrəmanlığı, Böyük Vətən müharibəsində qələbənin qazanılmasında Bakı neftinin müstəsna rolu, milli atıcı diviziyalarımızın Qafqaz dağlarının ətəklərindən Berlinədək keçdiyi şanlı döyüş yolu barədə çıxışı maraqla qarşılanıb. A.Qurbani ulu öndər Heydər Əliyevin kəlamlarını ziyarətçilərə xatırladaraq deyib: "Gənclər bilməlidir ki, 1941-1945-ci illər müharibəsində - dünya tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlığı ilə xalqımızın hörmətini qaldırıblar. Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır. Bu mənada, Müseyib Allahverdiyev də bu gün müharibə şəraitində yaşayan ölkəmizin hər bir vətəndaşı, xüsusi ilə hər bir gəncimiz üçün nümunədir".

Qeyd olunub ki, Müseyib Allahverdiyev və beş nəfər digər yaşıdı görkəmli sərkərdəmiz Əlağa Şıxlinskinin xeyir-duası ilə Tiflis hərbi piyada məktəbinə göndərilib və onlar 1936-cı ildə oranı müvəffəqiyyətlə bitiriblər. O vaxtdan Müseyib Abdulla oğlu taleyini həmişəlik orduya bağlayıb. Finlandiya müharibəsində ilk dəfə döyüş meydanlarına atılıb, qəhrəmanlıq nümunələri göstərib. Böyük Vətən müharibəsi başlanarkən könüllü olaraq döyüşən ordu sıralarına yazılıb. Moskva ətrafındakı döyüşlərdən başlayaraq Macarıstanın paytaxtı Budapeşt şəhərinə qədər şanlı döyüş yolu keçib. Qvardiya mayoru rütbəsinədək yüksələn igid həmyerlimizin komandiri olduğu tabor Dunay çayını birinci keçərək sonra gələn hərbi hissələrə yol açıb. Macarıstan ərazisində son dərəcə ağır döyüşlərdə iştirak edib. Taborun 1944-cü ilin ilk dekabr günlərində apardığı döyüş əməliyyatında düşmənin 500 əsgəri məhv edilib, 2200 nəfər əsir götürülüb, xeyli hərbi texnika, silah-sursat, ərzaq və digər ləvazimatlar ələ keçirilib. O, Budapeştin azad edilməsində xüsusi olaraq fərqlənib və müharibənin qurtarmasına 2 ay qalmış Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibədən sonrakı illərdə, 1969-cu ilin may ayına qədər hansı vəzifədə işləməsinə baxmayaraq, öz işinin öhdəsindən layiqincə gəlib, gənclərin vətənpərvərlik tərbiyəsində səylərini əsirgəməyib, ömrünün sonuna kimi xalq içində hərbi mundir geyinməkdən qürur hissi keçirib.

Ağstafa rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini Lalə Əyyubova, rayon Ağsaqqallar şurasının sədri Firdovsi Heydərli, əmək veteranı Fərhad Əliyev, "Ağstafa" qəzetinin redaktoru İbrahim Əliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi mayor Nazim Çələbiyev, müharibə veteranlarından Mirzahid Hacıyev, Ələddin Qarayev və başqaları çıxış edərək hərb tariximizdə müstəsna xidmətləri olan qəhrəmanların adlarının əbədiləşdirilməsi, xatirələrinin əziz tutulması, müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərilməsi və bu işin daim Azərbaycan Prezidentinin və Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzində olmasından geniş söhbət açıblar.

Qəhrəmanın oğlu Şamil Allahverdiyev atasına göstərilən bu ehtiram və hörmətə görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə ailələri adından minnətdarlığını bildirib.

Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevin 110 illiyinə həsr olunmuş xatirə tədbiri Dağ Kəsəmən kənd tam orta məktəbində davam etdirilib. Reyxstaq üzərində dalğalanan Qələbə bayrağı və Azərbaycanın milli atıcı diviziyalarının döyüş bayraqları ilə əhatə olunan qəhrəmanın büstünün qarşısına güllər düzülüb, xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Müəllim və şagird kollektivinin, eləcə də ictimaiyyət nümayəndələrinin, hərbi qulluqçuların iştirak etdikləri xatirə mitinqində polkovnik Abdulla Qurbani qəhrəmanın həyat və döyüş yolu haqqında ətraflı məlumat verib.

Nəzərə çatdırılıb ki, tabor komandiri Müseyib Allahverdiyevin müharibə həyatında ən maraqlı məqam Macarıstanda Dunay çayının sahilində olmuşdur. Budapeştin cənub-qərbində düşmənin müdafiə mövqeyini dağıtmaq üçün Dunay çayını keçmək lazım idi. Tabor buna tam hazır olsa da, komandanlıq əmr vermirdi ki, düşmən çox güclüdür, irəliləmək mümkünsüzdür. Müseyib əmr verilmədiyini görüb özü vəziyyəti təhlil edir və qərara gəlir ki, ləngimək olmaz, onsuz da vəziyyət gərgindir. Odur ki, gecənin qaranlığında tabor komandiri yuxarıdan əmr gözləmədən Dunay çayını keçir, faşist ordusunun müdafiə xəttini yarır və qoşunların hərəkətinə yol açır. Qvardiya mayorunun bu "özbaşınalığı" birmənalı qarşılanmır. Müseyibin bu əfsanəvi qəhrəmanlığını gözü götürməyən bəzi qüvvələr bunu "xəyanət" adlandırırlar. Hətta məsələ Ali Baş Komandana qədər gedib çatır. Məsələdən hali olan Stalin qəti şəkildə "Museyib prav!" deyir və onun təltif olunmasını tapşırır. Stalinin qəti cavabından sonra Azərbaycanın igid oğluna SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Sovet İttifaqı Qəhrəmanı" adı verilir.

Məktəbdə keçirilən tədbirdə Ağstafa rayon Təhsil şöbəsinin müdiri Kamran Abbasov, bölgədə xidmət edən hərbi qulluqçular adından polkovnik-leytenant Vüqar Allacov, məktəbin direktoru Mahir Nəbiyev və Şamil Allahverdiyev çıxış edərək gəncləri və məktəbliləri ata və babaların qəhrəmanlıq ənənələrindən bəhrələnməyə və Vətənə layiq övladlar kimi yetişməyə səsləyiblər.

Müdafiə Nazirliyinin adından məktəb kitabxanasına vətənpərvərlik mövzusunda yazılmış kitablar hədiyyə edilib. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar təşviqat qrupunun səsləndirdiyi hərbi marşlar və vətənpərvərlik mahnıları ilə xatirə tədbirləri sona yetib.

# Hərbi dənizçilərlə görüş



Müdafiə Nazirliyinin 2019-cu il üçün tədbirlər planına əsasən, Bakı Hərbi Məhkəməsi və Bakı Apelyasiya Məhkəməsinin nümayəndələri şəxsi heyətin hüquqi maarifləndirilməsi məqsədilə Hərbi Dəniz Qüvvələrində görüşlər keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun qurulması, cinayətkarlığa qarşı mübarizədə məhkəmənin hökm və qərarlarının rolunun artırılması, hərbi qulluqçular tərəfindən hərbi xidmət əleyhinə olan və digər cinayətlərin törədilməsinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin görülməsi barədə şəxsi heyətlə söhbətlər aparılıb.

Sonda şəxsi heyəti maraqlandıran sualları cavablandıran qonaqlar bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

* * *

Azərbaycan Ordusunda milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması məqsədilə Müdafiə Nazirliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlər həyata keçirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, birgə tədbirlər planına uyğun olaraq komitə nümayəndələri bu günlərdə Hərbi Dəniz Qüvvələrində dənizçilərlə görüşüb.

Görüşdə gənclərin zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu mövzusunda söhbətlər aparılıb və şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

# Ombudsman aparatı nümayəndələri hərbi hissədə olublar



Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (OMBUDSMAN) birgə təsdiq etdikləri plana əsasən, "Ombudsman təsisatı və bu təsisatın hərbi qulluqçuların hüquqlarının müdafiəsi yönümündə apardığı işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar hərbi hissədə şəxsi heyətlə görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Ombudsman aparatının Hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və sektorun böyük məsləhətçisi Murad Babayev insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyub və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

*Redaksiyamızın qonağı*

# “Dövlət üçün informasiya təhlükəsizliyi də prioritetdir”

*Rubrikamızın qonağı Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Ziferoğludur.*



**- Vüqar müəllim, 2014-cü ilin məlum avqust hadisələrinə və 2016-cı ilin Aprel döyüşlərinə KİV-in fərqli münasibəti haqqında sizin də fikirlərinizi öyrənmək maraqlı olardı...**

- Əslində, bu barədə müxtəlif fikirlər bildirilib. 2014-cü ilin avqustunda ön xətdə baş verən hadisələrə professional mediada adekvat münasibətin şahidi olduq. Düşmənin hadisələrə qədər hazırladığı dezinformasiyaların Azərbaycan mediasına necə sızdırılmasını da gördük. Müəyyən problemlər yaşandı. Düşmənin mediası dezinformasiyanı Rusiya elektron informasiya vasitələrinə ötürürdü. Bizim bəzi media vasitələri, bu sıradan saytlar məhz həmin mənbələrə istinad edir, həmin informasiyaların yayıcısı olurdu. Bu, informasiya müharibəsində üçüncü tərəfin qeyri-rəsmi vasitəçiliyiylə informasiyanın ictimailəşdirilməsi üsuludur. Ermənistan mediası 2014-cü ilin avqust hadisələrində bu üsuldan geniş şəkildə istifadə etdi. Azərbaycana və məlum avqust hadisələrinə deyil, digər ölkələrə və digər hadisələrə aid olan şəkillərin olayla əlaqəli təqdim edilməsi də bu üsulun tərkib hissəsi olmuşdu ki, bu da informasiya portallarında, daha çox sosial mediada ajiotaja, Azərbaycanda müəyyən çaşqınlıqlara səbəb oldu. Onda ermənilər informasiya müharibəsindən bəhs edən metodiki vəsaiti "pdf" versiyasında yaymışdılar. Niyə bu versiyada? - heç bir dəyişiklik edilməsin deyə.

Avqust hadisələri ilə bağlı belə informasiyalara dövlət tərəfindən ciddi münasibət bildirildi. Akademik Ramiz Mehdiyevin ciddi təhlil əsasında hazırladığı məqalə bu sahədə "həyəcan təbili" oldu, dövlət bunu nəzarətə götürdü. Media rəhbərləri ilə görüşlərdə təzahür etmiş və etməsi ehtimal olunan nöqsanlar ciddi müzakirə edildi, konkret tövsiyələr verildi.

Görülən tədbirlərin nəticəsi olaraq, Prezident 2014-cü ilin sentyabrında cəbhə xəttindəki vəziyyətlə bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan silahlı qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında sərəncam imzaladı. 2016-cı ilin Aprel döyüşləri zamanı bütün ölkə mediası hadisələrə peşəkar yanaşdı. 2014-cü ilin avqustu ilə müqayisəyəgəlməz dərəcədə bir həmrəylik və bir peşəkarlıq nümayiş etdirildi. 2016-ci ilin Aprel əməliyyatları zamanı Müdafiə Nazirliyinin də çevik, adekvat addımı əsas və çox önəmli idi. Jurnalistlərin sualları cavablandırıldı, informasiya qıtlığının yaşanmasına imkan verilmədi. Cəbhə xəbərləri ilə bağlı peşəkar mühitin formalaşmasına çox ciddi dəstək oldu. Mediamız 2016-cı ilin Aprel döyüşlərindən alnıaçıq çıxdı.

Son illərdə Müdafiə nazirinin əmriylə hərbi hissələrdə keçirilən "Açıq qapı" günü informasiya qıtlığının da aradan qaldırılmasında vasilə oldu. Yeri gəlmişkən, Müdafiə Nazirliyinin Mətbuat Xidməti bu informasiyaların ictimailəşdirilməsində olduqca gərəkli iş görür.

**- Ordu-cəmiyyət, ordu-media, ordu-ziyalı münasibətləri nəyə əsaslanır və yaxud əsaslanmalıdır?**

- Şübhəsiz ki, bu baxımdan müəyyən vacib şərtlər var. Bu şərtlərin ən vacibi sevgidir, qürurdur. Cəmiyyət ordunu sevməlidir. Cəmiyyətin bir tərkib hissəsi kimi media da, ziyalı da ordunu sevməlidir. Bu sevgi vətənpərvərlik deməkdir. Media da, ziyalı da vətənpərvər olmalıdır. Dünya miqyasında ordu-media münasibətləri çox ciddi şəkildə tənzimlənir. Bu, Pentaqon tərəfindən də ciddi nəzarət altında həyata keçirilir.

Orduya həsas, həssas olduğu qədər də müsbət münasibət ordunun təbliğatı, döyüş əzmi, qələbə ruhu deməkdir.

Media güc deməkdir. Müdafiə Nazirliyi istər müharibə şəraitində, istərsə də müharibədən sonra gərəkli olacağı ehtimal olunan media quruluşlarının təsis edilməsi, orduda piar təbliğatın artırılması istiqamətində bir sıra layihələr həyata keçirsəydi, media vasitəsiylə ordu-ictimaiyyət münasibətləri daha da möhkəmlənərdi.

**- Bu günlərdə Müdafiə Nazirliyinin vətəndaşlara və KİV nümayəndələrinə müraciəti də informasiya təhlükəsizliyinin təminatı sahəsində müəyyən səhlənkarlığa yol verildiyini göstərdi. Bu barədə nə deyə bilərsiniz?**

- Mənə olduqca xoşdur ki, cəbhə bölgəsinə gedəndə hər kəsin telefonuna təhlükəsizliyin təmin olunması haqda mesaj daxil olur. Bu, vətəndaşı məsuliyyətə səsləyən bir vasitədir. Çünki lazımsız informasiyaların verilməsi təhlükə yaradır. Düşünməliyik ki, düşmən tərəf cəbhə bölgəsindən informasiyaları daim nəzarətdə saxlamağa cəhd göstərir. Təhlükə var. Ona görə də hər birimiz daha çox məsuliyyətli və ehtiyatlı olmalıyıq. Dəyərli informasiyanı bölüşməklə zövq alanlar da var. Onlar düşünmür ki, bu informasiya düşmən üçün lazımlı ola bilər. Düşmən onlardan gələcəkdə əməliyyatlar hazırlayanda yararlana bilər. Burada bir məqam var. İnsanlar qələbə gözləyir. Ordumuzun düşmənə qarşı hər hansı cavab tədbiri yüksək əhval-ruhiyyəyə səbəb olur və bu barədə xəbəri daha çox insan paylaşmağa çalışır. Lakin paylaşdığı informasiyanın kimə daha səmərəli olduğunun fərqinə varmır. Emosional davranırlar. Təbii ki, bu mənada maarifləndirmə işlərinin genişləndirilməsi olduqca vacibdir. Burada media mənsubları çox ciddi rol oynamalıdırlar. Jurnalistikada sosial məsuliyyət anlayışı var. Yəni, jurnalistin digər vətəndaşlardan fərqli olaraq bir vətəndaş vəzifəsi də var. Mən jurnalistəm. Amma hər şeydən əvvəl həm də Azərbaycan Respublikasının vətəndaşıyam. Azərbaycan Respublikasının vətəndaşı kimi dövlət, xalq qarşısında öhdəliklərim var. Emosional yanaşmaq, emosional davranmaq yolverilməzdir və nə qədər gözəl xəbər alırsansa-al, bu mənada məsuliyyət hissini yaddan çıxarmamalısan. Müdafiə Nazirliyi tərəfindən cəbhə bölgəsində təhlükəsizlik tədbirlərinin görülməsi istər bannerlərin, plakatların vurulması, istərsə də telefonlara mesaj şəklində təhlükəsizliyə riayət olunması xəbərlərinin daxil olması müsbət effekt verir. Biz də bu istiqamətdə maarifləndirmə işini maksimum dərəcədə artırmalıyıq. Əslində, informasiya müharibəsi və informasiya təhlükəsizliyi, informasiya manipulyasiyası ilə bağlı tədbirlərin, maarifləndirmə işlərinin sayı və keyfiyyəti nə qədər çox olsa, o qədər də müsbət nəticə əldə edərik. Hərbi qulluqçunun texnika ilə şəkil çəkdirib paylaşmağının hansı təhlükələr yarada biləcəyinin fərqinə varmayanlar bilməlidir ki, "az işdən çox iş törəyir".

**- Media manipulyasiyasının qarşısını necə almaq olar?**

- Burada iki istiqamətdə maarifləndirmə işi aparılmalıdır. Birinci istiqamət, media savadlılığının, ikinci istiqamət isə, informasiya savadlılığının artırılmasıdır. Media savadlılığı cəmiyyətə yönəlik maarifləndirmə prosesidir. Cəmiyyət bilməlidir ki, sosial media və professional media nədir. Yeri gəlmişkən ermənilər bu taktikadan geniş istifadə edirlər: onlar müxtəlif domenlərdən istifadə etməklə, Azərbaycan rayonlarının adlarından ibarət, Azərbaycan dilində saytlar yaradır. Onlar bu saytlarla elə şəkildə təqdim edə bilərlər ki, heç kəsdə şübhə yaranmaz ki, erməni saytıdır. Bu metoddan geniş istifadə edirlər. Yəni, media savadlılığının artırılması prosesi bu kimi məqamlarla bağlı insanların maariflənməsinə gətirib çıxara bilər. İnsanlar, bu baxımdan istifadəçilər biləcəklər ki, hansı informasiyalara və hansı mediaya etibar etmək olar. Hansı medianın verdiyi xəbər mötəbər etibarlı, leqal xəbər sayılır. Ola bilsin ki, kimsə yalançı bir sayt yaratsın, dezinformasiyalar yaysın. Bu da cəmiyyətdə ciddi çaşqınlığa və ajiotaja səbəb ola bilər. Bu metodikalardan xarici xüsusi xidmət orqanları, xarici kəşfiyyat orqanları kifayət qədər istifadə edirlər.

**- Vüqar müəllim, sizin bu yanaşmanız təkcə müharibə kontekstindəndirmi?**

- Xeyr, istər sülh dövründə, istər müharibə şəraitində dövlətin, cəmiyyətin təhlükəsizliyini və milli təhlükəsizliyimizi çox önəmli bir məsələ kimi daim diqqətdə saxlamalıyıq. Bu yöndə maarifləndirmə işi artıq insanların peşəkar və qeyri-peşəkar media anlayışını mənimsəməsinə gətirib çıxarda bilər. Sosial mediada hər yazılan xəbər ciddi xəbər ola bilməz. Bunu ən azından insanların bilməyi çox vacibdir.

İnformasiya savadlılığının artırılması məsələsi mediada çalışanlara aiddir. Açıq etiraf edək ki, bu gün Azərbaycan mediasında çalışanların heç də hamısı ali təhsilli jurnalist deyil. Mediamızda jurnalist təhsili olmayan peşəkar jurnalistlər də var. Amma bununla belə maarifləndirmə işlərinin aparılması vacibdir. Ən azı peşə etikasını, informasiya ilə iş prosesini, sosial məsuliyyəti, KİV-in hüquqi tənzimlənməsini və KİV-in özünü tənzimləməsini bilməlidirlər.

**- Vüqar müəllim, informasiya müharibəsi nədir? İnformasiya müharibəsi yalnız müharibə gedən ölkələr üçünmü aktualdır?**

- Bunu təsdiqləmək yanlışlıqdır. İnformasiya müharibəsi sülh şəraitində olan ölkələr üçün də aparılır. İnformasiya müharibəsi hansısa bir super gücün və ya rəqib ölkənin informasiya sahəsinə müdaxilə etməsidir. İnformasiya müharibəsi düşüncələrdə aparıldığından müharibə qədər qorxuludur. Ümumiyyətlə, informasiya müharibəsi anlayışı bugünkü jurnalistikada aktual mövzudur. İnformasiya müharibəsi istiqamətində mediyada hələ çox ciddi işlər aparılmalıdır.

**- Beynəlxalq aləmdə hərbi xəbərlərin yayılması prosesi necə aparılır?**

- Dünyanın hər yerində hərbi xəbərlər, müdafiə sənayesi ilə bağlı xəbərlər, ümumiyyətlə, hərbi yönümlü məlumatlar müəyyən strukturların razılığı ilə yayımlanır və ictimailəşdirilir.

**- "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanunun müvafiq tələblərinin pozulmaması üçün media hansı vəzifələrin icraçısı olmalıdır?**

- İlk növbədə, peşəkar, professional yanaşma olmalıdır. Yuxarıda iki istiqamətdə iş aparılmasını qeyd etdim. Media məlumatlılığı və informasiya maariflənməsi jurnalistlərlə bağlıdır. İnformasiya savadlılığının artırılması eyni zamanda "Dövlət sirri haqqında" Qanunun da bizim qarşımızda qoyduğu bir tələbdir. Biz bilməliyik ki, hansı informasiya Dövlət sirri və həmçinin hərbi sirr sayılır. Bunlar Dövlət Qanununda açıq şəkildə yazılıb. Klassifikasiyası, çeşidlənməsi orada təqdim olunub. Bununla bağlı mütəmadi treninqlər, seminarlar, dəyirmi masalar, müxtəlif təlimlər təşkil edilməlidir. Prezidentin məlum sərəncamında da nəzərdə tutulan kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu vəziyyətlə bağlı verilən məlumatların monitorinqinin keçirilməsi və "Dövlət sirri haqqında" Qanuna görə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyən edib, onların qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunması bu istiqamətdə yol verilən nöqsanların aradan qaldırılmasının hüquqi bazasını təşkil edir. Deməli, informasiya təhlükəsizliyi sahəsində təkcə media nümayəndələri ilə deyil, ölkə vətəndaşları ilə də hüquqi maarifləndirmə işlərinin aparılması vacib sayılır. Unutmamalıyıq ki, dövlət təhlükəsizliyimiz bizim üçün prioritetdir. Bundan üstün heç nə ola bilməz. Biz bu dövlətin, bu ölkənin jurnalistiyik. Jurnalistikanın ən vacib nəzəriyyəsindən olan sosial məsuliyyət anlayışı peşəkar jurnalistikada özünün təsdiqini tapır.

**- Jurnalistika fakültəsində hərbi mətbuatla bağlı nələr tədris olunur? Həzəri və təcrübi biliklər aşılanmasını nəzərdə tuturam.**

- Fakültədə magistratura pilləsində informasiya təhlükəsizliyi və KİV fənni tədris olunur. Bakalavr pilləsində isə ikinci kursun ikinci semestrində seçmə fənn kimi jurnalistikanın və cəmiyyətin informasiya təhlükəsizliyi fənni tədris olunur. Həm bakalavrda, həm də magistraturada maksimum dərəcədə çalışırıq ki, bu istiqamətdə tələbələrimiz nəzəri və təcrübi biliklərə yiyələnsin. Dövlətin əsas ideoloji sütunu olan mediada müasirləşməni əsas götürməklə fakültədə modern fənlərin keçirilməsini təmin etmək niyyətindəyik. Hərbi jurnalistikanın ayrıca, seçmə fənn kimi tədris olunması, informasiya təhlükəsizliyi fənnini genişləndirib, informasiya müharibəsi və təhlükəsizlik formatında tədris edilməsini arzulayırıq.

İnformasiya təhlükəsizliyi də dövlət üçün prioritetdir.

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyi Azərbaycan Ordusunda da silsilə tədbirlərlə qeyd edilir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də silsilə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ordumuzun bir qrup hərbi qulluqçusu bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim İsmayıl Qəhrəman oğlu Şıxlının anadan olduğu Qazax rayonunda unudulmaz Xalq yazıçısının, görkəmli şəxsiyyətin adını daşıyan bağda onun abidəsini ziyarət edərək qarşısına gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Qrupu müşayiət edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani əvvəlcə yubileyi dövlət səviyyəsində qeyd edilən korifey sənətkarın həyat və yaradıcılığı barədə ətraflı məlumat verib. O bildirib ki, xalqımızın tarixində müstəsna xidmətləri olan elm, ədəbiyyat, incəsənət xadimlərinin, eləcə də sərkərdələrimizin yubileylərinin qeyd olunması haqqında Prezident Sərəncamları Azərbaycan Ordusunda da geniş şəkildə həyata keçirilir. Bu mötəbər insanların həyat və fəaliyyətləri, Vətən qarşısında xidmətləri haqqında şəxsi heyətə ətraflı məlumat verilir, onların nümunəsində əsgərlər milli-mənəvi dəyərlər əsasında tərbiyə edilir, hər bir döyüşçüdə yüksək vətənpərvərlik hissi, döyüş ruhu aşılanır.

Xalq yazıçısı İsmayıl Şıxlının mənalı ömür yolu mülki həyatda olduğu kimi, ordu həyatında da gənclərin Vətənə, dövlətə, xalqa sədaqət ruhunda tərbiyə edilməsində, onlarda yüksək əxlaqi və iradi keyfiyyətlərin aşılanmasında mühüm rol oynayır.

A.Qurbani dövlətimizin başçısının müvafiq Sərəncamına istinad edərək hərbi qulluqçuların nəzərinə çatdırıb ki, İsmayıl Şıxlı koloritli xarakterli və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik surətlərlə zəngin yaradıcılığı ilə Azərbaycan bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır. Taleyüklü məsələlərə münasibətdə daim vətəndaş-ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütünlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir.

Abidə qarşısında keçirilən anım tədbirində İsmayıl Şıxlı ədəbiyyatşünas, publisist, yazıçı, pedaqoq, ssenarist, ictimai xadim olmaqla yanaşı, həm də mübariz döyüşçü kimi xatırlanıb. Axı onun gəncliyi Böyük Vətən müharibəsinin odlu-alovlu cəbhə yollarında keçib. Şimali Qafqaz, Krım, Üçüncü Belarusiya cəbhəsi və Şərqi Prussiya istiqamətində döyüşən orduda igid əsgər kimi ad çıxarıb. Göstərdiyi şəxsi şücaətə görə "Qırmızı Ulduz" və ikinci dərəcəli "Böyük Vətən müharibəsi" ordenlərinə layiq görülüb. Yaradıcılığında vətənpərvərlik mövzusu əsas yer tutur. "Kerç sularında", "Dağlar səslənir", "Cəbhə yolları", "Xatirəyə dönmüş illər", "Ayrılan yollar" əsərləri bu gün də aktualdır. Onun əsərləri və ssenariləri əsasında çəkilmiş "Dəli Kür", "Bizim qəribə taleyimiz", "Kürə qarışan ömür", "Nə yaxşı ki, dünyada Səməd Vurğun var" və başqa filmləri yenə də tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. İsmayıl Şıxlı ömrü bir məktəbdir və bu məktəbdən bəhrələnənlər Vətənə həmişə layiq övladlar kimi yetişirlər.

Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi, şair-publisist Barat Vüsal Müdafiə Nazirliyinin görkəmli elm, mədəniyyət, ədəbiyyat, həmçinin hərb xadimlərinin təbliğindəki fəaliyyətini yüksək dəyərləndirib və bu işin əsl vətənpərvər döyüşçülərin yetişdirilməsində mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O deyib: "Bu gün mən əsgərlərimizin bir qrupunu İsmayıl Şıxlının abidəsi qarşısında görürəm. Onlar Azərbaycan ədəbi fikir tarixində özünəməxsus yeri olan unudulmaz sənətkarımızı yad etmək üçün buradadırlar. Bu, məni çox sevindirir. Tarixini yaxşı bilməyən, ədəbiyyatına, mədəniyyətinə, soykökünə yaxından bələd olmayan, milli-mənəvi dəyərlərə yiyələnməyən gənc vətənpərvər ola bilməz, yaxşı döyüşçü olmaz. Vətən uğrunda, torpaq uğrunda canından keçməz. Bu mənada, şəxsən mən Müdafiə Nazirliyinin bu istiqamətdə təşəbbüslərini alqışlayıram".

Şair Barat Vüsal İsmayıl Şıxlının "Qabaqda çarpışmalar çoxdur. Qalib çıxmaq üçün sərkərdə ilə qoşunun birliyi lazımdır. Sərkərdəni sərkərdə edən onun ordusudur, ordunu ordu edən isə onun sərkərdəsidir" kəlamını xatırladaraq əlavə edib ki, bu gün sərkərdə ilə ordumuzun qırılmaz birliyi var. Biz bu birliyi: ordunu ordu edən sərkərdənin qətiyyətini və sərkərdəni sərkərdə edən ordumuzun gücünü 2016-cı ilin Aprel döyüşləri zamanı və ötən ilin may ayında Naxçıvan Muxtar Respublikasında Günnüt kəndinin, Qızılqaya zirvəsi və digər yüksəkliklərin azad edilməsi və on bir min hektar ərazinin nəzarətə götürülməsi ilə nəticələnən döyüş əməliyyatlarında bir daha gördük. Bu birlik sayəsində biz işğal altında olan digər torpaqlarımızı da azad edəcək və Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olacağıq. Bu, heç kimdə şübhə doğurmur.

Şair sonra İsmayıl Şıxlı ilə bağlı xatirələrini danışıb, mənəvi ustadına həsr etdiyi yeni şeirini oxuyub.

Xalq yazıçısı İsmayıl Şıxlının tələbələrindən olan Çaylı kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi Məmməd Qocayev ata qədər sevdiyi müəllimini yada salıb, bu gün də gənc nəslin təlim-tərbiyəsində onun zəngin pedaqoji təcrübəsindən geniş istifadə etdiyini bildirib.

Məmməd müəllim Azərbaycan Ordusuna iki zabit oğul bəxş etdiyi üçün özünü xoşbəxt sandığını fəxrlə dilə gətirib.

İsmayıl Şıxlının bacısı oğlu sazbənd Sabit Məmmədov Xalq yazıçısının ailə üzvləri adından Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dayısı Xalq yazıçısı İsmayıl Şıxlıya göstərilən ehtirama görə minnətdarlıq edib.

Hərbi qulluqçular sonra "Fəxri Qazaxlılar" parkını ziyarət edib, Ədəbiyyat muzeyinin ekspozisiyası ilə tanış olublar.

# Hərbi Tibb fakültəsində elmi konfrans keçirildi



*Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsində Tələbə Elmi Cəmiyyətinin konfransı keçirildi.*

Konfransda Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin tibb işçiləri, kursantlar, onların ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Konfransın keçirilməsində məqsəd peşəkar tibbi birliklərin təkmilləşdirilməsi, səhiyyənin inkişaf etdirilməsi, səhiyyə sahəsində elmi-tibbi yeniliklərin tətbiqinin genişləndirilməsi, həmçinin gələcəkdə Vətənə layiqincə xidmət edəcək tibb işçilərinin yetişdirilməsindən ibarət idi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



Tibb xidməti polkovniki, Əməkdar həkim, Hərbi Tibb fakültəsinin rəisi Çingiz Əlləzov Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar barədə danışdı. O, hərbi tibb müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi, müayinə və müalicə işinin təkmilləşdirilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin sağlamlıq vəziyyətinin qorunması, tibbi təminatın müasir tələblərə uyğun təşkil edilməsi üçün dövlət və ordu rəhbərliyi tərəfindən həyata keçirilən tədbirlərin vacibliyini qeyd etdi.

Digər çıxış edənlər də ölkə başçısının rəhbərliyi altında hərbi səhiyyəmizin son illər beynəlxalq aləmdə nüfuzunun yüksəldiyini bildirdilər. Qeyd olundu ki, bu gün Azərbaycan hərbi tibb sahəsində dünyanın bir sıra ölkələri ilə məhsuldar əməkdaşlıq edir.

Konfransın panel iclaslarında Hərbi Tibb fakültəsinin kursantlarının elmi işləri ətrafında müzakirələr aparıldı. Eyni zamanda, mövzuların aktuallığı münsiflər heyəti tərəfindən yüksək qiymətləndirildi və belə konfransların mütəmadi olaraq keçirilməsinin əhəmiyyəti xüsusi vurğulandı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# “Vətən sənsən!” “Gənc əsgər”: vətənpərvərlik almanaxı

*Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzində Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə "Vətən sənsən!" "Gənc əsgər": vətənpərvərlik almanaxının təqdimetmə mərasimi keçirildi.*



Mayor Ramin Qasımov tədbiri açaraq bildirdi ki, xalqın hər bir nümayəndəsi dövlətə olan sədaqətilə vətənpərvər olmalıdır. "Qloballaşan dünyanın yad dəyərlərinin ölkəmizə, gənclərimizə qəbul etdirilməyə çalışdığı bir zamanda Azərbaycanın milli maraqlarının müdafiəsinə ehtiyacı var. Dövlətin gələcəyi onun vətəndaşının öz ölkəsinə olan sədaqət borcunu layiqincə yerinə yetirməsindən asılıdır. Xüsusilə gənclər öz fəaliyyətlərində ehtiyatlı olmalıdırlar. Çünki onları öz təsirlərinə salmağa daha çox çalışırlar. Son illərdə gənclərin fəaliyyətlərinin müsbət yöndə stimullaşdırılması üçün hazırlanmış müxtəlif dövlət proqramlarının uğurla həyata keçirilməsi Vətənimiz üçün yaxşı gələcək vəd edir. Bütün bunlar cəmiyyətdə millimənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına təkan verir".

Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin kitabxana müdiri, Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı qeyd etdi ki, vətənpərvərlik insanın daxili zənginliyidir. "Çox geniş məna çalarına malik olan vətənpərvərlik anlayışı özündə Vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə xidmət etməyi birləşdirir. Vətənpərvərlik də, Vətən sevgisi də şüar deyil, sevgidən qaynaqlanan əməldir. O sevgi gözlə görünməz, qəlbin gözü ilə, könüllə görünər, yalnız ruhla duyular...".

Layihənin rəhbəri Prezident təqaüdçüsü, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov kitab haqqında geniş məlumat verərək bildirdi ki, biz hadisələrə öz ədəbi-poetik dəstəyini vermək üçün müxtəlif layihələr həyata keçiririk. "YYSİB-nin "İntellektual əsgər": İnternet, sosial şəbəkələr, e-kitabxana, e-kitablar vasitəsilə yeniyyətmə və gənclər arasında vətənpərvərliyin kreativ-innovativ təbliği" adlı növbəti kulturoloji layihə çərçivəsində hərbçilərimizə yaradıcı insanlarımızın sevgisini "Vətən sənsən!" "Gənc əsgər": vətənpərvərlik almanaxı adlı ədəbi-bədii toplusuyla çatdırır. Almanaxda Oqtay Rza, Ağacəfər Həsənli, Zəminə Xınalı, Balayar Sadiq, Fəxrəddin Ziya, Aydın Xan Əbilov, Oqtay Ərgünəş, Nisə Bəyim, Güləmail Murad, Elşad Şamil, İntiqam Yaşar, Elnur Uğur Abdiyev, Şirin Kərimbəyli kimi müxtəlif nəsil şair və yazıçıların yeni bədii-poetik nümunələri yer alıb. Topluya layihə çərçivəsində təşkil olunmuş ədəbi müsabiqə yekununa uyğun olaraq, münsiflər heyətinin seçimi əsasında fərqləndirilən poeziya və nəsr əsərləri daxil edilib. Müxtəlif ədəbi növ və janrlarda qələmə alınmış bu maraqlı söz sənəti nümunələrinin oxucuları, xüsusən də gənc hərbçilərimiz və əsgəri borcunu verməklə Vətən qarşısında müqəddəs vəzifəsini yerinə yetirməli olan yeni nəsil nümayəndələri üçün maraqlı olacağına inanırıq".



Sonda Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi bir-birindən maraqlı musiqi nömrələri ilə tədbir iştirakçılarının ruhunu oxşadılar.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu",**
**fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Yaylım atəşli RM-70 reaktiv sistemi

Yaylım atəşli RM-70 reaktiv sistemi Çexoslovakiya istehsallıdır. Sovet BM-21 "Qrad" yaylım atəşli raket sisteminin Çexoslovakiya versiyasıdır. NATO üzrə - M1972 təsnifatıdır. 1970-ci ildən buraxılır və bir çox ölkələrin silahlanmasında durur. 1972-ci ildən istismara verilib və 1983-cü ildən yüksək keçidliyə malik "Tatra" 815 avtomobilinin şassisində quraşdırılıb. Bir müddətdən sonra bu maşının şassisi üzərində BM-21-dən istiqamətləndirilən 40 lüləli paketlə və ərazinin distansion minalanması üçün kompleks vasitələrlə təchiz edilmiş, təkmilləşmiş "KRİZAN" variantı hazırlanıb. Sistem özüyeriyən buraxıcı qurğu, NURS, atəşi idarə sistemi, nəqliyyat-təchizat maşınından ibarətdir. Onun qabaq hissəsində heyətin kabinəsi, arxa hissəsində isə artilleriya hissələri ilə birlikdə buraxıcı qurğu yerləşdirilib. Şassisinin uzunluğuna görə buraxıcı qurğunu yenidən təchiz etmək üçün onun orta hissəsində hidravlik qurğu yerləşdirilib. Artilleriya hissəsi raketləri istiqamətləndirən 40 lülədən ibarətdir. Atəş idarə olunmayan M-21OF başlıqlı mərmi-fuqas reaktiv mərmilərlə yerinə yetirilir. Sistemdən atəş tək-tək və yaylım atəşi ilə yerinə yetirilir. Digər müasir döyüş sursatlarından da istifadə edilə bilər. "Tatra" avtomobilinin şassisi V-şəkilli, 12 silindirli, 270 at gücündə "Tatra" T-930-3 mühərriki ilə təchiz edilib. Əlavə silahlanma qismində qüllədə 7,62 mm-lik pulemyot quraşdırıla bilər ki, onunla yerüstü və hava hədəflərinə qarşı atəş açmaq olar.



Yaylım atəşli RM-70 reaktiv sisteminin yürüş vəziyyətində uzunluğu 8800 mm, eni 2500 mm, hündürlüyü isə 2900 millimetrdir. Döyüş maşınının heyəti dörd nəfərdir. 20 saniyə ərzində yaylım atəşini həyata keçirir. Kalibri 122 mm, istiqamətləndiricilərinin sayı 40 ədəddir.

Yaylım atəşli RM-70 reaktiv sisteminin çoxlu sayda müxtəlif variantları da mövcuddur.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# İdman

## Rafael Ağayev “Karate 1” seriyasından Premyer Liqa turnirində bürünc medal qazanıb



Mərakeşin paytaxtı Rabatda Dünya Karate Federasiyasının (WKF) "Karate 1" seriyasından Premyer Liqa turniri başa çatıb.

Karateçimiz Rafael Ağayev (75 kq) yarışın bürünc medalını qazanıb. Fransalı idmançı Loqan Da Kostaya həlledici görüşdə 2-0 hesabı ilə qalib gələn idmançımız dünya və olimpiya reytinq xallarını artırmaqla mövqeyini möhkəmlədib.

Milli komandanın üzvlərindən Turqut Həsənov və Pənah Allahverdiyev (84 kq) təsəlliverici görüşlərə qatılsalar da, mükafatçılar arasına düşə bilməyiblər.

"Karate 1" seriyasından üçüncü nüfuzlu yarışda 8 ölkədən 661 idmançı mübarizə aparıb.

## Bədii gimnastika üzrə Azərbaycanın gənclərdən ibarət komandası qızıl və gümüş medallar qazanıb



Azərbaycanın gənc gimnastlardan ibarət komandası aprelin 21-də Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə II "AGF Junior Trophy" beynəlxalq turnirində beş halqa və beş lentlə hərəkətlərdə fəxri kürsüdə yer alıb.

Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadədən ibarət komandamız beş halqa ilə hərəkətlərdə 21.500 xal toplayaraq turnirin baş mükafatını qazanıb.

Eyni xala malik İtaliya yığması əlavə göstəricilərə görə komandamızdan geri qalaraq ikinci olub. Belarus təmsilçiləri isə 20.100 balla ilk üçlüyü qapayıblar.

Beş lentlə yarışlarda isə gimnastlarımız ikinci yeri tutublar. Onların çıxışları münsiflər heyəti tərəfindən 18.350 xalla qiymətləndirilib. Belarus təmsilçiləri 20.450 balla birinci, İtaliya gimnastları isə 17.050 xalla üçüncü olub.

## Azərbaycan şahmatçısı İspaniyada beynəlxalq turnirdə ikinci yeri tutub



İspaniyada şahmat üzrə Pedro Lezcano Montalvo XII beynəlxalq turniri başa çatıb.

Azərbaycan şahmatçısı Azər Mirzəyev turnirdə 7,5 xalla ikinci yeri tutub.

Yarışın qalibi 7,5 xalla Vadim Moiseenko olub. O, əlavə göstəricilərə görə təmsilçimizi üstələyib. Üçüncü pillədə isə Fransa idmançısı Thibault Fantinel qərarlaşıb.

## Savatçılarımız Tbilisidəki beynəlxalq turnirdə medallar qazanıb



Gürcüstanın paytaxtı Tbilisidə savat (Fransa boksu) üzrə beynəlxalq turnir keçirilib.

Turnirdə Gürcüstan, Azərbaycan, Qazaxıstan, İran və Ermənistan idmançıları iştirak edib. Yarışda qızlar arasında 50 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Selcan Quluzadə bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Digər bir idmançımız Elmir Süleymanov da (48 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Böyüklər arasındakı mübarizədə isə Fuad Həsənəliyev və Kənan Bayramov bürünc və gümüş medallar qazanıblar.

Qeyd edək ki, yarışda milli komandamız Əməkdar məşqçi Taleh Nağızadənin rəhbərliyi altında mübarizə aparıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 295
Nüsxə 3950